**AZƏRBAYCAN TIBB UNIVERSITETI**

# «QASTROENTEROLOGİYA»
**ixtisası üzrə fəlsəfə doktoru imtahanının**

# PROQRAMI

**hazırlıq istiqaməti: «TIBB ELMLƏRI»**

**proqramın istiqaməti: 060918 «QASTROENTEROLOGİYA»**

**BAKI - 2022**

**Qastroenterologiya fənni üzrə fəlsəfə doktoru imtahanının proqramı tibb elmləri doktoru, professor Ə.A.Hidayətov və tibb üzrə fəlsəfə doktoru, assistent A.A.Verdiyev hazırlanmışdır**

# MƏZMUNU


Ümumi qaydalar:
**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri
**Bölmə II.** Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar
**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu
3.1. Qastroenterologiyaya giriş
3.2. Proqramın mənimsənilməsi nəticəsində doktorantın səriştəliyinə (kompetensiyasına) qoyulan tələblər
3.2.1 Həkim- qastroenteroloq aşağıdakı ümummədəni kompetensiyalara yiyələnməlidir
4. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər
**Bölmə IV.** Qiymətləndirmə meyarları

## Umumi qaydalar

«Qastroenterologiya» ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı» tələblərinə, rezidentura təhsilinin məzmunu və təşkili Qaydalar» na və «Rezidenturada həkim – mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı»na uyğun hazırlanmışdır.

Doktorantura ali təhsil bazasında elmi və elmi – pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin təkmilləşdirilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

«Qastroenterologiya»nın öyrənilməsi bakalavr və rezidentura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır.

Qastroenterologiya – insanın həzm sistemi xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikasına yönəlmiş tibbi elm sahəsidir. Həkim – qastroenteroloq dərin fundamental və kliniki peşə hazırlığı tələb edən fəaliyyətə, o cümlədən, elmi – tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalıdır.

«Qastroenterologiya» ixtisası üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi – tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

«Qastroenterologiya» ixtisası üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

«Qastroenterologiya» ixtisası üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

«Qastroenterologiya» – fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi – tədqiqat və elmi – pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

060918- "Qastroenterologiya" ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi tibb sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin qastroenteroloji tədqiqatın müasir elmi metodlarına yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmununun əsasını** – xəstə orqanizmin həyat fəaliyyətinin nəzəri əsaslarının tədqiqi, eksperimental modelləşdirmə şəraitində və klinik müşahidələr fonunda patoloji proseslərin, xəstəliklərin, patoloji vəziyyətlərin yaranma səbəbləri və şəraiti, inkişaf mexanizmləri və nəticələrinin müəyyənləşdirilməsi, habelə adekvat müalicə üsullarının işlənib hazırlanması təşkil edir.

**Tədqiqatın obyekti** – müxtəlif xəstəlik və patoloji proseslər modelləşdirilmiş laborator heyvanlar və xəstə orqanizmlərdir. Patoloji proseslərin, xəstəliklərin əmələ gəlmə səbəblərinin və şəraitinin, inkişaf mexanizmlərinin eksperimental və klinik şəraitdə aparılan tədqiqatlar əsasında aydınlaşdırılması klinik tibbin inkişafına, yeni müalicə və profilaktika metodlarının işlənib hazırlanmasına zəmin yaradır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının 060918- "Qastroenterologiya" – istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

– elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 060918- "Qastroenterologiya" hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının - doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu təyin etmək;

– doktorantın patoloji proseslərin və xəstəliklərin inkişaf mexanizminin, gedişinin və nəticəsinin ümumi qanunauyğunluqları, ayrı-ayrı xəstəliklərin terapiya və profilaktikası prinsipləri haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

– doktorantın ümumi nozologiyaya aid olan məsələləri, tipik patoloji proseslərin etiologiyasını, patogenezini, ayrı-ayrı orqan və sistemlərin patologiyasının əsas formalarını, patoloji proseslərin və bir sıra mühüm xəstəliklərin profilaktikası və müalicəsi prinsiplərinin elmi əsaslandırılması bacarığını qiymətləndirmək;

– doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, xəstəliklərin modelinin yaradılması və eksperimental terapiyası məsələlərini, o cümlədən

müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, əldə olunan bilikləri klinikada tətbiq etməyi bacarmaq; klinik təfəkkürün metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANILAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

– müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

– qastroenterologiya sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

– qastroenterologiya sahəsində nəzəri və eksperimental tədqiqatların metodologiyasının mənimsənilməsi;

– elmi tədqiqatlarda qastroenterologiya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- ümumi nozologiya haqqında məlumat: səbəb və şərait amillərinin, həmçinin orqanizmin reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və nəticəsində rolu;

-tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif xəstəliklərin inkişafı zamanı orqanizm üçün əhəmiyyəti;

-orqan və sistemlərin tipik pozulmalarının səbəbləri, inkişaf mexanizmi və əsas əlamətləri;

- insanda tez-tez rast gəlinən xəstəliklərin etiologiyası, patogenezi, əlamətləri və nəticələri, onların etioloji və patogenetik müalicə prinsipləri;

- patoloji proseslərin öyrənilməsində eksperimental metodun (heyvanlarda xəstəliklərin və patoloji proseslərin modelləşdirilməsi) əhəmiyyəti; onun imkanları, məhdudiyyətləri və perspektivləri;

- tibbin və səhiyyənin inkişafında qastroenterologiyanın əhəmiyyəti, onun digər tibbi-bioloji və tibbi fənlərlə əlaqəsi.

**bacarıqlar:**

-klinik-laborator, instrumental, eksperimental və digər müayinələrin patofizioloji təhlilini aparmaq;

-əldə olunan bilikləri elmi-tədqiqat fəaliyyətində tətbiq etmək;

-heyvanlar üzərində eksperimenti planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək,

patologiyanın klinik formalarını öyrənmək üçün eksperimentin əhəmiyyətini düzgün qiymətləndirmək;

-xəstəliklərin inişafında, gedişində və nəticəsində tipik patoloji proseslərin rolunu qiymətləndirmək;

-EKQ-yə görə aritmiyanın əsas növlərini, miokard işemiyasının və infarktının əlamətlərini təyin etmək;

-qanın müayinəsini aparmaq və hemoqrama görə qan sistemi patologiyasının olmasını və onun tipik formalarını müəyyən etmək;

-hipoksiyanın növlərini və tənəffüsün patoloji tiplərini differensiasiya etmək;

-sidiyin müayinəsinə və klirens-testlərə görə böyrəyin tipik pozulmalarının xüsusiyyətlərini müəyyən etmək;

-sarılıqların müxtəlif növlərini differensiasiya etmək;

-mədə və bağırsaq şirələrinin müayinəsinə görə mədə və bağırsağın sekretor funksiyalarının tipik pozulmalarını müəyyən etmək;

-temperatur əyrilərinə görə qızdırma reaksiyalarının tiplərini müəyyən etmək;

-diaqnostik allergik sınaqların nəticələrini ayırd etmək;

-öyrənilən geniş yayılmış xəstəliklərin patogenetik terapiya prinsiplərini əsaslandırmaq.

**vərdişlər:**

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;

- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

- müstəqil qastroenteroloji tədqiqat aparmaq qabiliyyəti;

- şifahi və yazılı nitqini məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdirmək qabiliyyəti;

-tədqiqat işinin müxtəlif metodları;

-statistik göstəricilərin qiymətləndirilməsi metodikası, xronoloji təhlili metodları.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

### 3.1. QASTROENTEROLOGİYAYA GİRİŞ

Qastroenterologiya fundamental elm və tədris fənni kimi. Qastroenterologiyanın müasir tibb elmində yeri. Qastroenterologiyanın vəzifələri və metodları. Qastroenterologiyanın və klinik təbabətin inkişafında eksperimentin əhəmiyyəti. Tibbi-bioloji eksperimentlərin aparılmasının ümumi prinsipləri və onların nəticələrinin təhlili. Qastroenteroloji eksperimentlərdə istifadə olunan

müasir metodlar. Xəstəliyin öyrənilməsində və yeni müalicə üsullarının işlənib hazırlanmasında klinik, laborator, instrumental müayinələr və eksperimental terapiya əhəmiyyətli metod kimi.

Klinik qastroenterologiya haqqında anlayış, onun vəzifələri və perspektivləri, deontoloji aspektləri. Qastroenterologiyanın əsas hissələri: ümumi qastroenterologiya və klinik qastroenterologiya.

**3.2. Proqramın mənimsənilməsi nəticəsində doktorantın səriştəliyinə (kompetensiyasına) qoyulan tələblər**

**3.2.1 Həkim- qastroenteroloq aşağıdakı ümummədəni kompetensiyalara yiyələnməlidir:**

| **ÜFR-01** | **BAZA TƏHSİLİ** |
|---|---|

*Ümumi bilik və bacarıqlar*

ÜFR01.01. Cəmiyyətdə qəbul edilmiş əxlaq və hüquq normaları çərçivəsində səlahiyyətlərini icra etməyə hazır olmalı və praktiki tibbi fəaliyyət göstərməyi bacarmalı, həkimlik etikası qaydalarına, məxfi informasiya ilə işləmək haqqında qanunlara və normativ hüquqi aktlara riayət etməli, həkimlik sirrini qorumalıdır;

ÜFR01.02. Sosial əhəmiyyət kəsb edən məsələləri və prosesləri təhlil etməyi bacarmalı, öz professional iş fəaliyyətinə humanitar, tibbi-bioloji və digər klinik elmlərin müxtəlif metodlarını tətbiq etməyi bacarmalıdır;

ÜFR01.03. Səhiyyə haqqında qanunvericiliyin əsasları, tibbi yardım və qasrtoenteroloji xidmət göstərən müəssisələrin fəaliyyətini təyin edən əsas normativ sənədləri bilməlidir;

ÜFR01.04. Səhiyyə qanunvericiliyi ilə nəzərdə tutulmuş və müalicə müəssisəsi üzrə daxili əmrlərlə təsdiq olunmuş tibbi sənədləşməni aparmalıdır;

ÜFR01.05. Məntiqi və əsaslandırılmış təhlil etməyə hazır olmalı, müzakirələr və mübahisələr aparmağı, professional məzmunlu mətnləri redaktə etməyi bacarmalı, əməkdaşlıq etməli, mübahisələrin həllində tolerantlıq göstərərək tərbiyəvi və pedaqoji fəaliyyət göstərməlidir;

ÜFR01.06. İdarəçilik üsullarını və metodlarını bilməli, müxtəlif tərəddüdlü vəziyyətlərdə öz professional peşə səriştəliliyi çərçivəsində lazımi məsul idarəçilik qərarını verməyi bacarmalıdır;

ÜFR01.07. Tibbdə və qastroenterologiyada etika və deontologiya əsasları;

ÜFR01.08. Tibbi statistika və informatika.

**3.2.2. Həkim- qastroenteroloq aşağıdakı peşə kompetensiyalarına (PK) yiyələnməlidir:**

| **PFR-01.** | **DAXİLİ XƏSTƏLİKLƏR** |
|---|---|

*Peşə bilikləri*

PFR-01.01. Ölkədə terapevtik yardımın təşkilinin ümumi məsələləri, xəstəxana-ambulator müəssisələrin işinin, böyük və uşaq əhalisinə təcili və təxirəsalınmaz yardımın təşkili;

PFR-01.02. İntensiv terapiya və qastroenteroloji şöbələrə təcili hospitalizasiyası tələb olunan qastroenteroloji təxirəsalınmaz halların siyahısı;

PFR-01.03. Terapiya və qastroenterologiyada xüsusi tədqiqat üsulları (rentgenoloji, endoskopik, kompyuter tomoqrafik, ultrasəs, biokimyəvi, və s.);

PFR-01.04. Qastroenterologiyada ümumi tədqiqat üsulları, funksional tədqiqat üsulları və ilk növbədə, endoskopiya norma və patologiya zamanı;

PFR-01.05. Həzm sistemi, ürək-damar sistemi, böyrəklər, tənəffüs sistemi funksiyalarına instrumental və laborator nəzərət üsulları;

PFR-01.06. Qastroenteroloji klinikada farmakoterapiyanın əsasları, o cümlədən, əsas dərman maddələri qrupunun təsir mexanizmi, dərman tətbiqi zamanı baş vermiş fəsadlar;

*Peşə bacarıqları*

PFR-01.07. Pasiyentin xəstəliyi haqqında ətraflı informasiyanın toplanması; obyektiv müayinə üsullarının tətbiqi; xəstəliyin ümumi və xüsusi əlamətlərini aşkar etmək, xüsusən, təxirəsalınmaz yardım və intensiv terapiya tələb edən hallarda;

PFR-01.08. Xəstənin vəziyyətinin ağırlığını qiymətləndirmək; xəstəni bu vəziyyətdən çıxarmaq üçün lazımi ölçülərin götürülməsi;

PFR-01.09. Xüsusi tədqiqat üsullarının zəruriliyini təyin etmək (laborator, endoskopik, funksional və sair);

PFR-01.10. Hospitallaşmaya göstərişləri təyin etmək və onu təşkil etmək;

PFR-01.11. Differensial diaqnostikanın aparılması, klinik diaqnozun, xəstənin aparılma sxemi, planı və taktikasının əsaslandırılması;

PFR-01.12. Hemostazın pozulma dərəcəsini, trombolitik terapiyaya göstərişləri təyin etmək və göstəricilərin normallaşmasına dair bütün tədbirləri yerinə yetirmək;

PFR-01.13. Zəruri dərman vasitələrini və digər müalicə tədbirlərini təyin etmək;

PFR-01.14. Lazımi konsultativ tibbi yardımın həcmini təyin etmək və müalicənin korreksiyasını aparmaq;

PFR-01.15. Plevranın və qarın boşluğunun diaqnostik və mualicəvi punksiyaları.

## PFR-02. AMBULATOR TERAPİYA

*Peşə bilikləri*

PFR-02.01. Əhalinin kütləvi profilaktik müayinəsi zamanı qastroenteroloji xəstəliklərin erkən aşkarlanma üsulları;

PFR-02.02. Standart və qeyri-parametrik statistik təhlil üsullarının əsasları;

PFR-02.03. Xəstələrin dispanser müşahidəsi, profilaktik problemləri;

PFR-02.04. Tibbi hüququn əsasları və onların gündəlik həkim praktikasında tətbiq edilmə prinsipləri.

PFR-02.05. Mülkü müdafiədə tibb xidmətinin təşkili və fəaliyyəti məsələləri;

PFR-02.06. Profilaktikanın prinsipləri və variantları, onun təşkili və əsas qastroenteroloji xəstəliklərin profilaktik üsulları;

*Peşə bacarıqları*

PFR-02.07. Əmək qabiliyyətinin müvəqqəti və davamlı surətdə itirilməsi tibbi sosial ekspertizanın aparılması;

PFR-02.08. Sanitar maarifləndirmənin forma və üsulları.

## PFR-03. NEVROLOGİYA

*Peşə bilikləri*

PFR-03.01. Ölkədə nevroloji yardımın təşkilinin ümumi məsələləri, xəstəxana-ambulator müəssisələrin işinin, əhaliyə təcili və təxirəsalınmaz yardımın təşkili;

PFR-03.02. İntensiv terapiya və nevroloji şöbələrə təcili hospitalizasiyası tələb olunan həzm sistemi xəstəlikəri üzrə təxirəsalınmaz halların siyahısı;

PFR-03.03. Nevrologiya və qastroenterologiyada xüsusi tədqiqat üsulları (rentgenoloji, endoskopik, ultrasəs, biokimyəvi, angioqrafik və s.);

PFR-03.04. Nevroloji klinikada farmakoterapiyanın əsasları, o cümlədən, əsas dərman maddələri qrupunun təsir mexanizmi, dərman tətbiqi zamanı baş vermiş fəsadlar;

PFR-03.05. Həzm sistemi orqanlarında əməliyyat aparmaq üçün göstəriş və əks-göstərişlər;

*Peşə bacarıqları*

PFR-03.06. Reanimasiya tədbirlərinin həcmi və ardıcıllığını təyin etmək;

PFR-03.07. Zəruri təcili yardımın göstərilməsi;

PFR-03.08. Xəstəlik haqqında obyektiv informasiyanı almaq;

PFR-03.09. Aparıcı sindromu aşkar etmək;

PFR-03.10. Xəstəliyin etiologiyasını aşkar etmək;

PFR-03.11. Lazım olan əsas və əlavə müayinə üsullarının həcmini təyin etmək;

PFR-03.12. Xəstə və onun ailəsi ilə düzgün münasibət qurmaq;

PFR-03.13. Xəstələrdən, ailəsindən, ətrafdan müvafiq məlumatları toplamaq və onlarla işləmək;

PFR-03.14. Müvafiq məlumatları xəstələrlə, onların ailə üzvləri və şöbənin işçiləri ilə müzakirə etmək.

## PFR-04. İNFEKSİON XƏSTƏLİKLƏR

*Peşə bilikləri*

PFR-04.01. Ölkədə infeksion yardımın təşkilinin ümumi məsələləri, xəstəxana-ambulator müəssisələrin işinin, əhaliyə təcili və təxirəsalınmaz yardımın təşkili;

PFR-04.02. İntensiv terapiya və infeksion şöbələrinə təcili hospitalizasiyası tələb olunan infeksion xəstəlikləri üzrə təxirəsalınmaz halların siyahısı;

PFR-04.03. İnfeksion xəstəliklər və qastroenterologiyada xüsusi tədqiqat üsulları (rentgenoloji, endoskopik, ultrasəs, biokimyəvi, histoloji və s.);

PFR-04.04. İnfeksion klinikada farmakoterapiyanın əsasları, o cümlədən, əsas dərman maddələri qrupunun təsir mexanizmi, dərman tətbiqi zamanı baş vermiş fəsadlar;

*Peşə bacarıqları*

PFR-04.05. Reanimasiya tədbirlərinin həcmi və ardıcıllığını təyin etmək;

PFR-04.06. Zəruri təcili yardımı göstərilmək;

PFR-04.07. Xəstəlik haqqında obyektiv informasiyanı almaq;

PFR-04.08. Aparıcı sindromu aşkar etmək;

PFR-04.09. Xəstəliyin etiologiyasını aşkar etmək;

PFR-04.10. Lazım olan əsas və əlavə müayinə üsullarının həcmini təyin etmək;

PFR-04.11. Xəstə və onun ailəsi ilə düzgün münasibət qurmaq;

PFR-04.12. Xəstələrdən, ailəsindən, ətrafdan müvafiq məlumatları toplamaq və onlarla işləmək;

PFR-04.13. Müvafiq məlumatları xəstələrlə, onların ailə üzvləri və şöbənin işçiləri ilə müzakirə etmək.

## PFR-05. ONKOLOGİYA

PFR-05.01. Ölkədə onkoloji yardımın təşkilinin ümumi məsələləri, xəstəxana-ambulator müəssisələrin işinin, əhaliyə təcili və təxirəsalınmaz yardımın təşkili;

PFR-05.02. İntensiv terapiya və onkologiya şöbələrinə təcili hospitalizasiyası tələb olunan onkoloji xəstəlikləri üzrə təxirəsalınmaz halların siyahısı;

PFR-05.03. Onkologiya və qastroenterologiyada xüsusi tədqiqat üsulları (rentgenoloji, ultrasəs, endoskopik, biokimyəvi və s.);

PFR-05.04. Həzm sistemi orqanlarının xroniki xəstəlikləri fonunda xərçəng xəstəliyi inkişaf etmək riski yüksək olan patologiyaları (H.pylori ilə assosiasiya olunmuş qastrit, qastroezofageal reflyuks xəstəliyi, xroniki B və C hepatitlər, mədə-bağırsaq polipləri və s.) olan şəxslərdə onkomarkerlərin yoxlanması, laborator-instrumental müayinələrdən keçirilməsi və monitorinq aparılması;

PFR-05.05. Onkoloji klinikada farmakoterapiyanın əsasları, o cümlədən, əsas dərman maddələri qrupunun təsir mexanizmi, dərman tətbiqi zamanı baş vermiş fəsadlar;

*Peşə bacarıqları*

PFR-05.06. Reanimasiya tədbirlərinin həcmi və ardıcıllığını təyin etmək;
PFR-05.07. Zəruri təcili yardımı göstərilmək;
PFR-05.08. Xəstəlik haqqında obyektiv informasiyanı almaq;
PFR-05.09. Aparıcı sindromu aşkar etmək;
PFR-05.10. Xəstəliyin etiologiyasını aşkar etmək;
PFR-05.11. Lazım olan əsas və əlavə müayinə üsullarının həcmini təyin etmək;
PFR-05.11. Xəstə və onun ailəsi ilə düzgün münasibət qurmaq;
PFR-05.13. Xəstələrdən, ailəsindən, ətrafdan müvafiq məlumatları toplamaq və onlarla işləmək;
PFR-05.14. Müvafiq məlumatları xəstələrlə, onların ailə üzvləri və şöbənin işçiləri ilə müzakirə etmək.

## PFR-06. KARDİOLOGİYA

*Peşə bilikləri*

PFR-06.01. Ölkədə kardioloji yardımın təşkilinin ümumi məsələləri, xəstəxana-ambulator müəssisələrin işinin, əhaliyə təcili və təxirəsalınmaz yardımın təşkili;
PFR-06.02. İntensiv terapiya və kardioloji şöbələrə təcili hospitalizasiyası tələb olunan həzm xəstəlikləri üzrə təxirəsalınmaz halların siyahısı;
PFR-06.03. Kardiologiya və qastroenterologiyada xüsusi tədqiqat üsulları (rentgenoloji, ultrasəs, endoskopik, biokimyəvi və s.);
PFR-06.04. Kardioloji klinikada farmakoterapiyanın əsasları, o cümlədən, əsas dərman maddələri qrupunun təsir mexanizmi, dərman tətbiqi zamanı baş vermiş fəsadlar;

*Peşə bacarıqları*

PFR-06.05. Reanimasiya tədbirlərinin həcmi və ardıcıllığını təyin etmək;
PFR-06.06. Zəruri təcili yardımı göstərmək;
PFR-06.07. Xəstəlik haqqında obyektiv informasiyanı almaq;
PFR-06.08. Aparıcı sindromu aşkar etmək;
PFR-06.09. Xəstəliyin etiologiyasını aşkar etmək;
PFR-06.10. Lazım olan əsas və əlavə müayinə üsullarının həcmini təyin etmək;
PFR-06.11. Xəstə və onun ailəsi ilə düzgün münasibət qurmaq;
PFR-06.12. Xəstələrdən, ailəsindən, ətrafdan müvafiq məlumatları toplamaq və onlarla işləmək;

PFR-06.13. Müvafiq məlumatları xəstələrlə, onların ailə üzvləri və şöbənin işçiləri ilə müzakirə etmək.

## PFR-07. İNTENSİV TERAPİYA VƏ REANİMASİYA

*Peşə bilikləri*

PFR-07.01. Təxirəsalınmaz qastroenteroloji, hepatoloji və ümumi reanimasiyanın əsas müddəaları;
PFR-07.02. İntensiv terapiya şöbələrində xəstələrə qulluğun xüsusiyyətləri;
PFR-07.03. Kliniki ölümü (baş verən zamandan asılı olaraq) ya da terminal vəziyyətini göstərən əsas klinik əlamətlər;
PFR-07.04. Hospitalizasiyaya qədər mərhələdə reanimasiya xüsusiyyətləri;
PFR-07.05. Hospitalizasiya mərhələsində reanimasiya xüsusiyyətləri;
PFR-07.06. Uğurlu reanimasiyadan sonrakı intensiv terapiya;
PFR-07.07. Qastroenteroloji klinikada intensiv terapiya və reanimasiya xidmətinin təşkili, intensiv terapiya və reanimasiya palatalarının təchizatı;

*Peşə bacarıqları*

PFR-07.08. Ürəyin qapalı masajı;
PFR-07.09. Ağciyərlərin süni ventilyasiyası;
PFR-07.10. Ürəyin elektrik defibrilyasiyası;
PFR-07.11. Tənəffüs yollarının keçiriliciyini bərpa etmək;
PFR-07.12. Traxeyanın intubasiyası;
PFR-07.13. Oksigenasiya;
PFR-07.14. Periferik damarların punksiyası;
PFR-07.15. Magistral damarların kateterizasiyası və punksiyası;
PFR-07.16. Valdman apparatı ilə Mərkəzi Damar Təzyiqinin ölçülməsi;
PFR-07.17. Dərman maddələrinin yeridilməsinin bütün üsulları;
PFR-07.18. Qanın, qan komponentlərinin və qan əvəzedici məhlulların köçürülməsi;
PFR-07.19. EKQ çəkilməsi və müvəqqəti peysmeykerlərin qoyulması;
PFR-07.20. Nəzəri biliklə yanaşı aşağıdakı praktik vərdişlərin yerinə yetirilməsi;
PFR-07.21. Arteriyaseksiya və veneseksiya edilməsi.

## PFR-08. TƏXİRƏSALINMAZ QASTROENTEROLOGİYA

*Peşə bilikləri:*

PFR-08.01. Üst və alt mədə-bağırsaq qanaxmalarının müalicəsi;
PFR-08.02. İntensiv terapiya blokuna köçürülən üst və alt mədə-bağırsaq qanaxmaları, o cümlədən qida borusunun varikoz genişlənmiş venalarından qanaxmalar, həyat üçün təhlükəli qaraciyər çatışmazlığı

və digər qastroenteoloji problemi olan xəstələrin vəziyyətinin qiymətləndirilməsi;

*Peşə bacarıqları:*

PFR-08.03. Endoskopik skleroterapiya və elastik həlqələrlə damarların bağlanması;

PFR-08.04. Poliplərin və yad cisimlərin çıxardılması;

PFR-08.05. Sfinkterotomiya və xoledoxdan daşlarının çıxarılması;

PFR-08.06. Senqestaken- Blakemore zondunun salınması;

PFR-08.07. Həzm traktı orqanlarının buj və balon ilə müalicəsi.

## PFR-09. ÜMUMİ QASTROENTEROLOGİYA

*Peşə bilikləri:*

PFR-09.01. Həzm sistemi orqanlarının anatomik quruluşu və normal fiziologiyası;

PFR-09.02. Həzm sistemi xəstəliklərinin (mədə-bağırsaq traktının diskineziyaları, divertikulları, kardiyanın axalaziyası, qastroezofageal reflyuks xəstəliyi, xroniki qastrit, mədə və 12 barmaq bağırsağın xora xəstəliyi, H.pylori ilə assosiasiya olunan xəstəliklər, rezeksiyadan sonrakı vəziyyətlər, kəskin və xroniki pankreatitlər) bağırsağın funksional xəstəlikləri, bağırsağın iltihabi xəstəlikləri (xoralı kolit, Kron xəstəliyi, irsi enteropatiyalar, malabsorbsiya və maldigestiya sindromları, Uipple xəstəliyi, tropik spru, infeksiya və parazitar mənşəli bağırsaq xəstəlikləri, babasil, amyob dizenteriyası, düz bağırsağın xəstəlikləri) epidemiologiyası, etiologiyası, patoqenezi və diaqnostikasını;

PFR-09.03. Böyüklərdə əsas həzm sistemi xəstəliklərinin klinik simptomatikası və patogenezi;

PFR-09.04. Həzm sistemi xəstəliklərini diferensasiya etməkdə kifayət qədər təcrübə toplamalı;

PFR-09.05. Həzm sistemi patologiyası olan xəstələr üçün reabilitasiya və profilaktik tədbirlər həcmini təyin etmək;

PFR-09.06. Diaqnozların differensasiyasında klinik məlumatları sintez etməyi;

PFR-09.07. Xəstələrdən məlumatların toplanması vərdişlərinin təkmilləşdirilməsi;

PFR-09.08. Hospitalizə olunmuş xəstələrdə aparılan müayinələrin məntiqi əsaslandırılması;

PFR-09.09. Xəstəni intensiv terapiya şöbəsində klinik müşahidə etməyi və həyatı funksiyaların saxlanılma üsullarını;

PFR-09.10. Həzm sistemi xəstəlikləri ilə əlaqədar psixoloji problemlərin təyini və müalicəsi;

*Peşə bacarıqları:*

PFR-09.11. Qastroenteroloji klinikada sərhəd vəziyyətlərinin klinik simptomatikası;

PFR-09.12. Fizioterapiya, müalicəvi bədən tərbiyyəsi və həkim nəzarətinin tətbiqi, sanator-kurort müalicəyə göstəriş və əks-göstərişlər;

PFR-09.13. Sağlam orqanizmin rasional qidalanma əsasları, qastroenteroloji xəstələrdə pəhriz terapiyası prinsipləri;

PFR-09.14. Müvafiq xəstəxanaya hospitalizasiya olunmasını tələb edən mədə-bağırsaq qanaxmaları, kəskin pankreatit, kəskin divertikulit və s., həyat üçün təhlükəli olan başqa qastroenteroloji problemləri olan xəstələrin vəziyyətinin qiymətləndirilməyi.

## PFR-10. AMBULATOR QASTROENTEROLOGİYA

*Peşə bilikləri:*

PFR-10.01. Həzm traktı orqanları üzərində aparılmış əməliyyatdan sonra xəstələrin müalicə və reabilitasiya həcmini təyin etmək;

PFR-10.02. Qastroenteroloji ambulator xəstələrin (uşaqlar da daxil olmaqla) aparılmasını, eləcə də bütün yaş qruplarında ekspertizanı;

*Peşə bacarıqları:*

PFR-10.03. Sağlam şəxslər və xəstələr arasında keyfiyyətli tibbi maarifləndirmə işini aparmağı.

## PFR-11. PEDİATRİK QASTROENTEROLOGİYA

*Peşə bilikləri:*

PFR-11.01. Uşaqlarda həzm sistemi xəstəliklərinin xüsusiyyətləri;

PFR-11.02. Həzm traktı orqanlarının anadangəlmə qüsurları;

## PFR-12. ABDOMİNAL CƏRRAHİYYƏ

*Peşə bilikləri:*

PFR-12.01. Həzm traktı orqanlarının xəstəliklərində cərrahi müalicəyə göstərişləri, əks göstərişləri müəyyənləşdirmək;

PFR-12.02. Həzm traktı orqanları üzərində aparılmış cərrahi əməliyyatlardan sonra xəstələrin müalicə və reabilitasiya həcmini təyin etmək;

PFR-12.03. Cərrahi müdaxilədən sonrakı fəsadların aşkar edilməsi və aradan qaldırılması.

## PFR-13. ABDOMİNAL CƏRRAHİ REANİMASİYA

PFR-13.01. Xəstənin əməliyyatdan sonrakı vəziyyətinin qiymətləndirməsi, cərrahi müdaxilədən sonra xəstələrinnn reabilitasiyası, agırlşmaların müalicəsi;

PFR-13.02. Mərkəzi venoz kateterlərin qoyulması;

## PFR-14. ENDOSKOPİYA VƏ ERXPQ

*Peşə bilikləri:*

PFR-14.01. Üst və alt qastrointestinal sistemin endoskopik müayinələrini və müalicələrini aparmaq, selik qişalarının vəziyyətlərini qiymətləndirmək, selik qişadan bioptatların götürülməsi, müəyyən olunan patologiyaların (eroziya, xora, şiş) vəziyyətinin müəyyən edilməsi;

PFR-14.02. Endoskopik müayinələrə göstərişlər, əks göstərişlər, məhdudiyyətlər və mümkün fəsadlar;

PFR-14.03. Üst və alt qastrointestinal sistemdə müşahidə olunan qanaxmaları dayandırmağın endoskopik texnikaları;

PFR-14.04. Üst və alt qastrointestinal sistemdə polipektomiya texnikası, stenozlar zaman stend tətbiq etmək;

PFR-14.05. Endoskopik retroqrad pankreatoxolangioqrafiya (ERXP) müayinəsinə göstərişlər, əks göstərişlər, məhdudiyyətlər və bu prosedurada baş verə bilən ağırlşmalar;

PFR-14.06. ERXPQ interpretasiyasını- normal ERXPQ, pankreas və öd axacaqlarında müşahidə olunan dəyişiklikləri (stenoz, daş, şiş və s.);

*Peşə bacarıqları:*

PFR-14.07. Üst və alt qastrointestinal qanaxmaları zaman endoskopik müayinəni aparmağı bacarmalı;

PFR-14.08. Qida borusunun varikoz genişlənmiş venalarından qanaxma zamanı skleroterapiya, damarların bağlanması;

PFR-14.09. Sfinkterotomiya, xoledox daşlarının çıxarılması üsulları (səbət və balon vasitəsilə) stentin taxılması, balonla dilatasiya;

## PFR-15. KAPSUL ENDOSKOPİYASI

*Peşə bilikləri:*

PFR-15.01. Mədə-bağırsaq sisteminin kapsul endoskopiyası vasitəsilə müayinə üsullarının ümumi prinsiplərini;

PFR-15.02. Kapsul endoskopiyası müayinəsinin aparılması üçün göstərişlər və əks göstərişləri;

PFR-15.03. Hansı hallarda kapsul endoskopiyaya müayinə üsulundan imtina etməyi;

*Peşə bacarıqları:*

PFR-15.04. Kapsul endoskopiyası müayinələrinin interpretasiyasını (normal şəkil və patologiya);

## PFR-16. US MÜAYİNƏ

*Peşə bilikləri:*

PFR-16.01. Qaraciyərin, öd yollarının, mədəaltı vəzin, dalağın, mədə və bağırsağın ultrasəs müayinələrini aparmaq, bu orqanların parenximasının vəziyyətini, divarların ölçülərinin təyin edilməsi;

PFR-16.02. Qaraciyər damar sistemində, portal venada, dalaq damarlarında qan cərəyanın sürətini, stenozların səviyyəsini təyin etmək məqsədilə Doppler metodları;

PFR-16.03. Qaraciyərdə, biliar sistemdə və mədəaltı vəzidə daşların, poliplərin təyin edilməsi.

*Peşə bacarıqları:*

PFR-16.04. US müayinə aparmağı bacarmalı və alınan nəticələri digər instrumental müayinələridə (endoskopiya, kompyuter tomoqrafiyası, maqnit rezonans tomoqrafiyası) alınan nəticələrlə əlaqələndirilməsi;

## PFR-17. HEPATOLOGİYA

*Peşə bilikləri:*

PFR-17.01. Qaraciyər və biliar sistemin anatomiyası və funksiyaları;

PFR-17.02. Qaracıyərin qanla təchizatının xüsusiyyətləri;

PFR-17.03. Böyüklərdə əsas qaraciyər xəstəliklərinin klinik simptomatikası və patogenezi;

PFR-17.04. Qaraciyər xəstəliklərində istifadə olunan diaqnostik və terapevtik prosedurların aparılmasına göstərişlər, əks göstərişlər, məhdudiyyətlər;

PFR-17.05. Müxtəlif mənşəli kəskin və xroniki hepatitlərin, qaraciyər sirrozunun diaqnostikasında differensial diaqnostikasına istifadə olunan biokimyəvi, seroloji, genetik, histopatoloji üsullar;

PFR-17.06. Qaraciyər xəstəliklərinin ağırlaşmaları (hepato-renal sindrom, qida borusunun varikoz venalarından baş verən qanaxmalar);

PFR-17.07. Qaraciyər transplantasiyasına göstərişlər, əks göstərişlər;

PFR-17.08. Qaraciyər patologiyalarının diaqnostikasında qaraciyər dəridən keçən (perkutan) biopsiyaya göstərişlər, əks göstərişlər, ağırlaşmalar.

*Peşə bacarıqları:*

PFR-17.09. Qaraciyər xəstəliklərinin assit, hepatik ensefalopatiya, spontan bakterial peritonit, hepatorenal sindrom kimi fəsadlarının diaqnostikası və müalicəsi;

PFR-17.10. Qaraciyər müxtəlif patologiyalarında müşahidə olunan funksional, virusoloji və morfoloji dəyişikliklərin qiymətləndirilməsi;

PFR-17.11. Digər etiologiyalı (toksiki, metabolik, irsi) qaraciyər xəstələrin müalicəsi.

### PFR-18. MƏDƏ-BAĞIRSAQ TRAKTININ HƏRƏKİ (MOTOR) FUNKSİYASI

PFR-18.01. Həzm sistemi orqanlarının hərəki funksiyalarının normal fiziologiyası;
PFR-18.02. Hərəki funksiyaların pozulması nəticəsində baş verən mədə-bağırsaq traktının funksional xəstəliklərinin patogenezində baş-beyin bağırsaq əlaqəsi və yüksək visseral həssaslıq;
PFR-18.03. Bağırsaq xəstəliklərinin psixososial aspekti.

*Peşə bacarıqları:*

PFR-18.04. Mədə-bağırsaq traktının hərəki funksiyalarının müayinəsində istifadə olunan rentgen, radionuklid müayinələrin interpretasiyası;
PFR-18.05. Qida borusunun və mədənin pH-metriyası müayinəsinin aparılması;
PFR-18.06. Motor funksiyasını tənzimləyən dərman vasitələrindən istifadə etməyi.

### PFR-19. QASTROENTEROLOJİ RADİOLOGİYA

*Peşə bilikləri:*

PFR-19.01. Həzm sistemi patologiyasının kompyuter və nüvə-maqnit müayinə üsullarının ümumi prinsiplərini;
PFR-19.02. Kompyuter və nüvə-maqnit rezonansı müayinə üsularının aparılması üçün dəqiq göstərişi və əks- göstərişləri;
PFR-19.03. Hansı hallarda kompyuter və nüvə-maqnit rezonansı müayinə üsulundan istifadə və ya imtina etməyi;
PFR-19.04. Qastroenterologiyada nukleid müayinə üsullarının prinsiplərini (baza strukturu və qamma kameraların strukturu daxil olmaqla);
PFR-19.05. Qastroenterologiyanın kompyuter və nüvə metodlarının klinik istifadəsi və məhdudiyyətlərini;
PFR-19.06. Radiasion fizika və radiasion təhlükəsizlik prinsiplərinə yiyələnmək;

*Peşə bacarıqları:*

PFR-19.07. Radiasion müayinələrin interpretasiyasını (normal şəkili və patologiya);

## 4. TƏHSİLİN MƏZMUNUNA VƏ SƏVİYYƏSİNƏ QOYULAN MİNİMUM TƏLƏBLƏR

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası

Həkim -qastroenteroloq dərin fundamental və kliniki peşə hazırlığı tələb edən müasir profilaktika, diaqnostika, müalicə və reabilitasiya üsullarından istifadə etməklə əhaliyə ixtisaslaşmış qastroenteroloji yardımın göstərilməsinə hazır olmalıdır.

**4.1.1.** Həkim qastroenteroloqun peşə fəaliyyətinin əsas istiqamətləri:

- praktiki tibbi;
- elmi-tədqiqat;
- təşkilati-inzibatçılıq;
- elmi-pedaqoji sahə üzrə.

**4.1.2.** Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər:

**4.1.2.1.** praktik tibb sahəsi üzrə: (ÜFR-01. və PFR-01 — PFR-19. bəndlər aiddir)

**4.1.2.2.** elmi-tədqiqat sahəsi üzrə:

- qastroenteroloji xəstəliklərin inkişafında tibbi-sosial amillərin rolunu qiymətləndirmə üsullarını bilməlidir;
- elmi-tədqiqat işlərini planlaşdırmalıdır;
- tədqiqat mövzusunun seçilməsini bacarmalıdır;
- elmi-tədqiqat işini aparılmalıdır;
- elmi-tədqiqat işinin nəticələrinin təhlil etməlidir;
- alınmış nəticələrin praktik əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməli, nəşr materiallarının hazırlanmasında iştirak etməlidir.

**4.1.2.3.** təşkilati-inzibatçılıq sahəsi üzrə:

- səhiyyə sistemində qəbul edilmiş normativ sənədlərdən (Azərbaycan Respublikasının qanunlarını, texniki reqlamentləri, beynəlxalq və milli standartları, əmrləri, tövsiyələri, beynəlxalq vahidlər sistemini, fəaliyyətdə olan beynəlxalq təsnifatları) istifadə etməyi, həmçinin tibbi müəssisələrin işinin keyfiyyətini və effektivliyini qiymətləndirmək üçün aparılmış sənədləşmələrdən istifadə etməyi bacarmalıdır.
- qastroenterologiya sahəsinin təşkilati quruluşunu, tibbi yardım göstərən müxtəlif tibbi müəssisələrin idarəçilik fəaliyyətini bilməli, müəssisələrin struktur bölmələrinin (ixtisas profilinə görə) iş göstəricilərini təhlil etməli, xəstələrə (qastroenterologiya ixtisası profilinə görə) tibbi xidmətin göstərilməsində müasir tibbi-təşkilati və sosial-iqtisadi texnologiyaların səmərəsini qiymətləndirməyi bacarmalıdır.
- peşə səriştəsinin formalaşması üçün professional biliklər, bacarıqlar, vərdişlər sisteminə yiyələnməlidir.

**4.1.2.4.** elmi-pedaqoji sahə üzrə:

- orta tibbi ixtisas təhsil müəssisələrində və baza ali tibbi təhsilin səviyyəsində ixtisasa uyğun olaraq tədris edə bilər (mühazirə oxumağı, seminar aparmağı, laboratoriya işləri və s.)

## IV BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

**Metodik göstərişlər**

**Doktorantların** 060918 "Qastroenterologiya" ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı "Qastroenterologiya" ixtisasi üzrə mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan zamanı komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- ümumi nozologiya haqqında məlumat: səbəb və şərait amillərinin, həmçinin orqanizmin reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və nəticəsində rolu; tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif xəstəliklərin inkişafı zamanı orqanizm üçün əhəmiyyəti; orqan və sistemlərin tipik pozulmalarının səbəbləri, inkişaf mexanizmi və əsas əlamətləri; patoloji proseslərin öyrənilməsində eksperimental metodun (heyvanlarda xəstəliklərin və patoloji proseslərin modelləşdirilməsi) əhəmiyyəti; onun imkanları, məhdudiyyətləri və perspektivləri.
- klinik-laborator, eksperimental və digər müayinələrin patofizioloji təhlilini aparmaq; heyvanlarda eksperimental tədqiqatları planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək, patologiyanın klinik formalarını öyrənmək üçün eksperimental metodun əhəmiyyətini düzgün qiymətləndirməyi bacarmaq;
- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq; tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək; müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini təhlil etmək və qiymətləndirmək.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5 ("əla"), 4 ("yaxşı"), 3 ("kafi") və ya 2 ("qeyri-kafi")** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|

| 1 | 2 |
|---|---|
| **5 (əla)** | Doktorant qastroenterologiya ixtisasını dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant qastroenterologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və toxumaların patofiziologiyası haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat mlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **4 (yaxşı)** | Doktorant qastroenterologiya ixtisasını fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant qastroenterologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və toxumaların patofiziologiyası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **3 (kafi)** | Doktorant qastroenterologiya fənnini qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant qastroenterologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların məlumatları, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və toxumaların patofiziologiyası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatların ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirməkdə çətinlik |

| | |
|---|---|
| | çəkir. |
| **2 (qeyri-kafi)** | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və qastroenterologiya ixtisasını mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant qastroenterologiya ixtisası üzrə yerli və xarici məlumatlar, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və toxumaların patofiziologiyası haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilmir. |